# DİVİDENDLƏR, MƏNFƏƏTİN BÖLÜŞDÜRÜLMƏSİ VƏ ÖDƏNİLMƏSİ

1) «Bank» səhmdarlar üçün ədalətli və davamlı dividend siyasətini tətbiq etməlidir.
2) Dividend siyasətinin ədalətli şəkildə müəyyənləşdirilməsi üçün və bu istiqamətdə müvafiq prosedurların şəffaflığını təmin edilməsi məqsədi ilə «Bank» səhmdarlara maliyyə göstəricilərini açıqlamalı, aidiyyəti maliyyə-mühasibat sənədləri ilə tanış olmaq imkanını yaratmalıdır.
3) «Bank»ın xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır.
4) Mənfəət qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər.
5) «Bank» xalis mənfəəti bölüşdürmək və dividendlər elan etmək hüququna malikdir və Səhmdarların Ümumi Yığıncağının qərarı və qanunvericiliyə əsasən həmin dividendlər nağd pulla və ya digər qaydada ödənilə bilər.
6) Adi səhm üzrə dividend «Bank»ın xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.
7) «Bank» dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər.
8) Dividendin ödənilməsi, hansı dövrə aid olması, onun məbləği və ödəniş formasına dair qərar «Bank»ın Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən qəbul edilir.
9) «Bank»ın dividendlərin ödənilməsi barədə öhdəlikləri Səhmdarlarının Ümumi Yığıncağı dividendlər ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır.
10) Dividendlər hesablanarkən hər bir səhmə düşən məbləğ eyni olmalıdır.
11) Dividendlərin səhmdarlar arasında bölüşdürülməsi səhmdarların malik olduqları səhmlərə mütənasib olaraq aparılır.
12) «Bank» tərəfindən geri satın alınmış səhmlər digər investorlar və ya səhmdarlar tərəfindən təkrarən alınmayanadək həmin səhmlər üzrə dividendlər hesablanmır.
13) Əgər «Bank»ın xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, dividendlər elan edilə və ödənilə bilməz.
14) Dividendlərin bölüşdürülməsi zamanı qanunvericiliklə tənzimlənən digər məsələlər də nəzərə alınmalıdır.